# XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

## Gəncə şəhər Əhməd Cavad adına 2 nömrəli tam orta məktəb




Gəncə şəhər 2 nömrəli tam orta məktəb 1982-ci ildən əsas təhsil müəssisəsi kimi fəaliyyət göstərmişdir. 1987-ci ildən isə tam orta məktəb kimi işə başlamışdır.

Məktəb 1992-ci ildən görkəmli şair, Azərbaycan Respublikasının dövlət himnini yazmış və 1937-ci ilin represiya qurbanı olmuş Əhməd Cavad adını daşıyır.

Məktəbimiz Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və göstərşi ilə 1980-ci ildə salınmış Yeni Gəncə qəsəbəsində yerləşir.





## Şəmkir şəhər Əhməd Cavad adına tam orta məktəb

Şəmkirdə Əhməd Cavad adına tam orta məktəb 1965-ci ildə istifadəyə verilib. Bir tipli layihə əsasında tikilib.






## Üzeyir Hacıbəyov və Əhməd Cavadın abidə kompleksi



**Ünvan:** Mirzə Ələkbər Sabir, Şəmkir, AZ5700

Şəmkir şəhərindəki İstiqlal parkında böyük şəxsiyyətlərimizin xatirəsinə bir sıra abidələr ucaldılıb. Bu abidələrdən ən maraqlısı dünyada tanınmış heykəltəraş Azad Əliyevin yaratdığı müstəqil Azərbaycanın dövlət himninin müəllifləri Üzeyir Hacıbəyli və Əhməd Cavadın heykəlləridir. O, bu əsər üzərində işləyərkən bəstəkarla şairin himn üzərində birgə işini canlandırmağa çalışmışdır.

## Gəncədə Əhməd Cavadın barelyefinin açılışı



Gəncədə böyük istiqlal şairi, tərcüməçi, professor Əhməd Cavadın yaşadığı evin üzərinə onun barelyefi vurulub. 15 oktyabr, 2021-ci il tarixdə barelyefin açılış mərasimi keçirilib.

## Əhməd Cavad adına Bakı Humanitar Kolleci (2010)



Kollec öz əsasını Azərbaycan Xalq Komissarları Sovetinin 5 mart 1938-ci il tarixli qərarı ilə yaradıldılmış "Kitab-xanaçılıq məktəbi"dən götürüb. Kollec müxtəlif dövrlərdə Bakı Siyasi Maarif məktəbi (1940), Bakı Kitabxanaçılıq Texnikumu (1948), N.K.Krupskaya adına Bakı Mədəni-Maarif Texnikumu (1980), Əhməd Cavad adına Bakı Mədəni-Maarif Texnikumu (1991), Bakı Mədəni-Maarif Texnikumu (2000), Bakı Humanitar Kolleci (2010)adları ilə fəaliyyətini davam etdirmişdir. 2016-cı ildə Bakı Sosial Pedaqoji Kolleci Bakı Humanitar Kollecinə birləşdirilmişdir. 11 iyul 2020-ci ildə Bakı Humanitar Kolleci Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec kimi publik hüquqi şəxs status alaraq yenidən təşkil olunmuşdur.

## Ankarada Əhməd Cavadın heykəli

Türkiyənin paytaxtı Ankara şəhərində Azərbaycan xalqının istiqlal mübarizəsinə layiqli töhfələr vermiş vətənpərvər şair və ictimai xadim Əhməd Cavadın heykəlinin açılışı olub. (5 may 2022)



## Ankarada Əhməd Cavad küçəsi




Ankarada Azərbaycan xal-qının istiqlal mübarizəsinə layiqli töhfələr vermiş vətənpərvər şair və ictimai xadim, Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavadın adına küçənin açılışı olub. **(06.06.2022)**

Küçəyə Əhməd Cavadın adının verilməsi istedadlı şairin anadan olmasının 130 illiyi ilə bağlı Türkiyədə keçirilən tədbirlər çərçivəsində görkəmli şairin adının əbədiləşdirilməsi məqsədilə həyata keçirilib.

## Azərbaycanda Əhməd Cavadın adını daşıyan küçələr



**Əhməd Cavad küçəsi, 1920-ci illər, Bakı**



**Əhməd Cavad küçəsi 2020, Bakı**

## Gürcüstanın paytaxtı Tbilisi şəhərində Əhməd Cavadın adını daşıyan küçə







2011-ci ildən Tbilisinin İsani rayonunda Əhməd Cavadın adını daşıyan küçə.